

## Qərib Mehdi

# Ən alçaq adam

**(hekayə)**

**(əvvəli ötən sayımızda)**

***Şifahi xalq ədəbiyyatının tədqiqatçısı, «Koroğlu» dastanından namizədlik dissertasiyasımüdafiə edən, burma bığları qulaqlarının dibini döyəcləyən, ayağı yeni vəzifə üzəngisində olanyaxın günlərin müavini icazə istəyib təzə direktorun kabinetinə daxil oldu. İlk anda şaşırdı. Deyəsən,kabinetdə kimsə yox idi. Sağa və sola boylandı. Yenə axtardığını bula bilmədi. Nəzərlər baş tərəfinmərkəzini aldı. Deyəsən, orda – kreslonun qucağında kimsə vardı. Birdən direktor ayağa durub həmvarlığını sübut etmək, həm də çağırışa gələni qarşılamaq üçün hərəkətə keçdi. Müavinə elə gəldi ki,bataqlıqda gizlənən, ovunu görən kimi hücuma hazırlaşan qorxunc bir canlı ilə üzləşdi. Rəhbər nizəlibaxışlarını müavinin donuq gözlərinə dikdi. Anlaşılmaz proses baş verdi. Qəbula gələnin yanlaraaçılan burma bığları şəstliyini itirib yavaş-yavaş üzüaşağı – çənəsinə doğru sallanmağa başladı. Boyuqısaldı. Əvəzində direktorun qısa boyu tədricən ucaldı. Necə olmuşdu ki, o, bu «uca boylu» kişinidərhal seçə bilməmişdi? Buraxdığı səhvi gecikmədən düzəltmək lazım idi. Uca boylu müavin kiçikboylu rəhbərin kölgəsinə sığındı.***

Direktor müavinin şokda olduğunu anladı. Zahiri etikanı gözləyərək kəndiri kəsilməkdə olanişçisinə «xoş gəldiniz» deyə əl uzatdı. Müavin rəhbərin tək əlinin pişvazına qoşa əlini yolladı.Kifayət eləmədi. Rəhbər qarşısında alçalan bir az da alçaldı:

– İlin-günün bu vədəsində bu nə bığdır tumar verib bəsləyirsiniz? Bığ-saqqal dəbi keçmişdəqalmayıbmı?

Üçgünlük istefada olan müavin bığı məxsusi səbəbdən saxladığını izah etməyə, daha doğrusu,əsaslandırmağa çalışdı:

– Mənim elmi işim «Koroğlu» dastanı ilə bağlıdır. Rəmz məsələsinə üstünlük verdim.Qəhrəmanımın bir nişanəsini özümdə ehtiva etmək qərarına gəldim. Bu rəmz nə Qırat, nə də Misriqılınc olardı. Bığ daha uyğun idi. Beləliklə...

Direktor kinayə ilə səsləndi:

– Bığ bəsləmək qərarına gəldiniz, hə?..

– Bəli. Bığ həm də kişilik, igidlik rəmzidir.

Rəhbərin kinayəsi azalmadı, əksinə, bir az da kəskinləşdi:

– Selikli burunun altında kişilik, igidlik aramaq maraqlıdır...

Müavin sevər yerindən vuruldu. Ancaq bunu ağartmaq istəmədi. Baş verəcək hadisəningerisini gözləməyə üstünlük verdi. Təki sonrası yaxşı qurtaraydı. Deyəsən, ümidi doğrulmayacaqdı.Külək başqa cür əsirdi.

Onlar bığ məsələsini ayaq üstə çözürdülər. Rəhbər nə özü oturudu, nə də qəbula çağırdığınaoturmaq üçün yer göstərirdi. O, qarşısındakının tədricən əyilməsindən, əriyib kiçilməsindən zövqalırdı:

– İzahınızdan belə nəticə çıxardıram: Siz Koroğlu olanda, istər-istəməz mən də Həsən Paşaolmalıyam. Elmi-Tədqiqat İnstitutunu da Həsən Paşanın sarayı hesab etmək olar. Elədirmi?

***Müavin yaman yerdə yaxalanmışdı. Dili ağzında qurudu. Rəhbərin dəmir məntiqi qarşısındasöz tapa bilmədi. Odur ki, müqavimət göstərmədən ağ – təslim bayrağını qaldırdı:***

***– Cənab direktor, düz buyurursunuz, məntiq sizin haqlı olduğunuzu deyir.***

***– Etirafınız xoşuma gəldi. İntəhası, bu nahamarlığı yoluna qoymaq lazımdır.***

***Müavin titrək səslə dilləndi:***

***– Necə?***

***Direktor tərəddüd etmədən düyməni basdı, hüzura çağırılan Lalə xanım veriləcək tapşırığıyerinə yetirmək üçün kabinetə daxil oldu. Fərəməz Fərmanoviç ciddi əməliyyatın başlandığına işarəilə:***

***– Lalə xanım, katibələr ehtiyatlı olurlar, qayçınız varmı? – dedi.***

Anası ölmüş Lalıçkanın beynindən klassik bir misra keçdi: «Mən arifəm, işarədən qananam».Soruşdu:

– Var, – marağını boğa bilmədi. – Mənim vəzifəm deyiləni icra etməkdir. Hər halda əlavəməlumat almaq istərdim. Cürbəcür qayçılarım var. Hansı gərəkdirsə, onu gətirim.

Müavin əcaib bir tufanın yaxınlaşdığını hiss edirdi. Göy guruldayır, şimşək çaxırdı. Bu saatleysan yağış başlayacaqdı. Ehtimal ki, bu tufan qurbansız ötüşməyəcəkdi. Görəsən, bada gedənqurbanlığın adı nə olacaqdı? Direktor növbəti addımını atdı:

– Müavinin gərnəşən bığlarını kəsəcəyəm. Bığlar çox baş aparır. Baş aparanın başıgetməlidir.

Elə bil göyün dirəyi çəkildi. Yer oğlu uçqunun, dağıntının altında qaldı. Lalıçqa icrayatələsmədi. Qəzəbə düçar olmuş müavinə özünü xilas etmək üçün şərait yaratmaq istədi. Müavin isəmüqaviməti ağlına gətirməməli, könüllü təslim olmalıydı. Ancaq bu yolla özünü xilas edə bilərdi.Bəlkə, sovxaya qalmış bığlarını dag Müavin dili tutar-tutmaz yalvarmağa başladı. Hətta gözləri dədolmuşdu:

– Şərəfimə toxunmayın, Fərəməz müəllim. Hamı məni bığıma görə tanıyır, hörmət edir.Mümkünsə, fikrinizdən daşının. Məni lağ obyektinə çevirib gülünc günə qoymayın.

– Fikrim qətidir. Bir idarədə iki qoçun olması yolverilməzdir. Siz Koroğlusunuz, onda mənkiməm?

Müavin direktorun vəzifəsinin möhtəşəmliyini nəzərə çarpdırdı:

– Siz küll-ixtiyar sahibi Həsən paşasınız!

– Elə isə ətrafdakıları hədələyən bığlarınızı kəsib sizi özünüzə qaytaracağam. Elmi-müəssisənin rəhbəri mən olaola bığ saxlamıram, siz isə səlahiyyətinizi unudub sifətinizdə bığbağçası yaradıbsınız. Nə olsun ki, elmi işiniz «Koroğlu» eposundan bəhs edir, – sonra direktor Lalə xanıma doğru çevrildi:

***– Lalə xanım, qayçını mənə verin.***

***Çox görüb-götürmüş Lalıçqanı təəccübləndirmək olmazdı. Amma bu dəfə təzə məşuqunungedişləri, istədiyini ustalıqla alçaldıb özündən aşağı endirən priyomları katibəni təəccübləndirdi.Sən demə, təzə rəhbər onun düşündüyündən də dərin imiş. Ürəyində müavinin halına acıdı.Könülsüz də olsa, qayçını rəhbərə doğru uzatdı. Rəhbər qayçını aldı. Kəsərliyini yoxlamaq üçünhərəkətə gətirib bir-iki dəfə şaqqıldatdı:***

– Başınızı əyin, boğazınızı mənə doğru uzadın.

Ürəkyaxan mənzərə idi. İndi müavinin başı da, boynu da rəhbərin ixtiyarında idi. Müavinmənliyini qorumaq üçün əmrdən imtina edib üsyana qalxa bilərdimi? O, bunu edə bilsəydi, bütünkollektivin rəğbətini qazanmış olardı. Hissolunmaz cəhddə bulunsa da, buna gücü çatmadı. Bığlıbaşını, qalstuklu boğazını rəhbərinə doğru uzatdı. Qəhərlənmiş səsi ilə ancaq bunu deyə bildi:

– Bu, şərəf məsələsidir. Bunu etməyin, cənab direktor. Xahiş edirəm...

Direktorun güzəştə getmək fikri yox idi. Yenə qayçının kəsəri qollarını şaqqıldatdı:

– Qərar yerinə yetirilməlidir!

Müavin əyilməyində davam edirdi. Həm də güzəştli bir variant axtarırdı. Yenə rəhbəringəlbində mərhəmət hissi oyatmağa çalışdı:

– Kollektivin gözü qarşısında kabinetinizə bığlı girib bığsız qayıtmağın qəbahətini təsəvvüredin. Sərt qərarınıza bir də nəzər salmağınızı xahiş edirəm. İcazə verin, bu edamı evimdə mən özümyerinə yetirim. Soruşanlara deməyə də sözüm olsun.

Direktor müavini lazımınca əymişdi. Bundan sonra güzəştə getmək olardı. Ancaq güzəştüçün inandırıcı səbəb lazım idi. Bunu duyan Lalə xanımın poladı muma döndərən səsi eşidildi:

– Fərəməz müəllim, mən müavini yaxşı tanıyıram. O, dediyini yerinə yetirəndir. Onunxahişinə mən də tərəfdaram. Təki sizin qərarınız icra olunsun. Az müddətdə sizin alicənablığınızabələd oldum. İnanıram ki, müavinin xahişi ilə razılaşmaqla bu dəfə də yüksəkliyinizisaxlayacaqsınız.

Ani götür-qoydan sonra rəhbərin sifətində işıq əlamətləri göründü. Deyəsən, hətta gülümsədi də. O, qələbəsini təmin etmişdi. İcranın tərzinin o qədər də mənası qalmamışdı:

***– Lalə xanımın sözündən keçə bilmirəm. Qoy siz deyən olsun.***

***Sonra qayıdıb kreslosunda bərqərar oldu, müavinə də oturmaq üçü yer göstərdi, hətta bir azda yumşalıb əliqayçılı katibəsinə müraciət etdi:***

***– Qayçını apar, əvəzində bizə təzə dəmdən ətirli çay gətir. Müavinlə hələ söhbətim bitməyib.Sən işində ol, mənim balam. Müavinlə münasibətlərimizin təzə səhifəsini açacağam. Axı müavinləbizim «qohumluğumuz» da var. Yumşalmağımın bir səbəbi də onunla bağlıdır.***

***Lalıçka işinin dalınca getdi. Onsuz da nəticəni biləcəkdi. Rəhbərlə aralarından sukeçməyəndə sirlər açılır.***

Müavin mat qalmışdı. Bu «qohumluq» əlaqəsi haradan çıxdı. Fərəməz müəllim dediyini sübutedə biləcəkdimi? Rəhbər isə arxayın idi. Elə bil səyyah Kolumb Hindistanı aramaqda qısa yolaxtarışında yeni birləşdirici boğaz kəşf etmişdi. Rəhbər «sirr mücrüsü»nü açdı:

– Bu «saray»da siz Koroğlu, mən isə Həsən Paşa kimi üz-üzə oturmuşuq. Axı bu izdivaca razıolmasam da, siz mənim gözümün ağı-qarası olan yeganə qızım Nigar xanımı qaçırmağa, ailəqurmağa nail oldunuz. Qohumluq düşmənçiyə son qoydu. Deməli, siz mənim «kürəkən»imolursunuz. Belə deyilmi?

***«Kürəkən» məntiqə təslim oldu:***

***– Belə olmasa da, belə olur.***

***Fərəməz Fərmanoviç:***

***– Həsən paşa kürəkəni – bığsız Koroğlunu vəzifəsiz, yüksək maaşsız qoya bilməz. Sizitaleyin ümidinə buraxmaq bir «qayınata» kimi mənə baş ucalığı gətirməz. Nə qədər itaətdəolacaqsınızsa, o qədər də ortabab kresloda oturacaqsınız. Sabahdan vəzifəyə bərpa münasibətiləmrin sürətini ala bilərsiniz. Təbrik edirəm!***

***Yeni kəşfi ilə direktor müavinin nəzərində ucaldı, ucaldı və əlçatmaz oldu. O, bığı buraxandada qazanmışdı, qurban verəndə də qazandı.***

***



**(ardı gələn sayımızda)**